# YAZI-YOZU



*Əlbəttə ki, Allah-Təala mövcuddur. Və əlbəttə ki, adamların, yığnağın təsəvvür etdiyi kimi deyil. Çünki, bir insanın, hər bir kəsin Tanrı barədə öz düşünüb-daşındığı var. Kafir o kəs deyil ki, kütlənin təsəvvüründə yaşayan Tanrını inkar edə, mənə qalsa, mürtəd o kəsdir ki, camaaatın əqidəsində özünə yer tutan təsəvvürdən fayda götürsün. Biz bəndələr beləyik ki, gümanımızda olan comərd, xeyirxah bir kəsə nəcib münasibət bəsləyək, bizə yaxın olmayana isə üz bozardvaq - axı o bizə yaddır. Bu fani dünyada hər şey çox mürəkkəbdir, ya əksinə, ola bilsin sadədən sadədir - axı biz bunu başa düşən ağılda deyilik…*

**Epikür**

## "Rəngli yuxular"dan…

*(bir cüt bir tək)*



**Hicran**

### Zikr et!

**Yuxumda yamyaşıl duman gördüm…**

**Bütün səslərin, sözlərin,**
**olan-olmayan rənglərin**
**Çalınan-çalınmayan zənglərin**
**uzaq-yaxın hənirlərin**
**itdiyi yaz dumanında**
**Qırılır bir təsbeh**
**Göyə bülənd**
**alxışların-qarğışların yanında**
**müşk qoxuyan o dənəvər**
**o çəhrayı dənələr**
**narıncı günlər kimi**
**Paylanır illərə, aylara**
**Ömür bütöv, qismət para**
**Daha kim bilir hara…**
**Hər dənə dil açır...**
**Dilimdə dualar, təsbih…**
**Zikr et, - deyir, zikr elə!**
**Duman göydən üzülür**
**o dənələr**
**Özü-özünə**
**Uzandıqca uzanır**
**Yenə sapa düzülür**
**Gözümdə**
**seyrəlir o yaşıl duman…**
**Nə bir səs var, nə səmir**
**Gəlib keçir, yolüstü**
**başıma sığal çəkir**
**bir əsim nəsim**
**Nədən bəs o nəsimin**
**qovduğu qov kimiyəm?**
**Niyəsindən xəbərim yox?**
**Bəlkə bütün çəkilərin**
**ağır-yüngül vəznlərin,**
**rəddlərin, iznlərin**
**itdiyi anmış**
**Bir Kitab açılır**
**başımın üstdə,**
**o Kitabda**
**necə qərib sözlər varmış?!**
**sözlər çırpınır**
**dilimin ucunda**
**Zikr elə, - deyir, - zikr elə!**
**Dan üzü,**
**Bir qadın dayanıb**
**üzü fəcrə**
**Gözlər yumulu**
**Baxışları zillənib**
**Köksündəki imana, əcrə.**
**Əlində söz dolu o Kitab**
**O Kitabda sözlərin ən**
**böyüyü**
**Bircə gündə**
**Gül açar, bar gətirər**
**Yuva qurar qəlbində**
**Zikr elə! - zikr qıl!**
**Tutqun hava, tutqun ovqat**
**Görən yağacaqmı yağış,**
**çıxacaqmı günəş?**

## Qoşa minarə

*Yuxumda Şuşanı gördüm, başını aşağı salıb dayanmışdı...*

Necəsən, qoşa minarə,
səni tez-tez yuxularda görürəm...
Turşsu, "Ərim gəldi" oyaqmı?
Bəs Cıdır düzündə, ocaq yerində
başımı yaran daş necə?
Tikişi hələ də alnımdadı...
Xınalı daşlar, xallı kəpənəklər,
mavi çiçəklər nə deyir?
Yenə yağırmı yağışlar,
yenə ağarırmı daşlar?
Gülə bilirmi şehli otlar,
oxuya bilirmi quşlar?
Cavab yazarsan mənə...
Həlaliksə...
soruşan olsa, deyərsən:
Burdan bir xatirə keçdi,
hicran aldı, apardı...





## Qəmli lövhə

*Yuxumda Qarabağın gül-çiçəyini, beli bükülmüş gördüm*

Güllər, ləçəkləriniz darıxanda elə
qəhr olmusuz ki...
Günlər, rəngləri axtarıb tapmayanda
elə qırılmısız ki...
İllər gülləri, günləri, olub keçənləri
unutmaqdan elə
yorulmusuz ki...
Didərginlər, qaraca "vətən" sözünün
qaranlığında eləcə qaralmısız
ki...
Səslər , əl-ələ verin not dəftərində!
Sözlər, yaxın olun səslərə, rənglərə!
Suallar, dəyişin yerinizi nidalarla!
Əmrdi bu, - əmrdi!